# «VULKAN YATAĞINDA KÖZLƏR YANIRDI...»

**«Kredo» qəzetinin 18.10.2018-ci il tarixli sayında dərc olunmuş eyni başlıqlı yazıda görkəmli alim, fəal ictimai xadim, professor Nizaməddin Şəmsizadənin mövcud durumu və səhhəti ilə bağlı problem qaldırılmış, bir növ məsələnin cəmiyyətin diqqətinə çatması üçün səy edilmişdi. Qəzet yayılandan sonra redaksiyaya aramsız zənglər olmuş, hər kəs kömək etmək üçün haraya, kimə müraciət edilməsini soruşmuş, vəziyyətlə bağlı təəssüflərini bildirmişlər. Yazı sosial şəbəkədə də böyük əks-səda doğurmuşdur. Münasibət bildirənlər arasında İran, Türkiyə, Rusiya, Avropa ölkələrində yaşayanlar da az deyil. İnsanların humanist münasibətinin təsdiqi olan qeydlərin bir qismini bir daha oxucuların diqqətinə çatdırırıq.**

Əli Rza Xələfli: - Səsiniz gəlsin, dostlar. Xahiş edirəm mətni oxuyun... sonra münasibət bildirin.

Ramin Məmmədov: - Əli Rza Xələfli, əziz dostum, belə alov saçan yazını - mətni oxumamaq, bu harayı, həyəcan təbilini eşitməmək, duymamaq olarmı?

Nəzirməmməd Zöhrablı: - Allah kömək olsun böyük alimimizə, Əli Rza Xələfliyə də təşəkkürlər.

Əli Rza Xələfli: - Nəzirməmməd Zöhrablı, salamlar... Xahiş edirəm, mətni oxuyun.

Vasib Hüseynəliyev: - Allah şəfa versin, Nizaməddin Şəmsizadə layiqli alimdir... Və ən yüksək qayğıya layiqdir, istər dövlət tərəfindən, istərsə də millətin imkanlı şəxsləri tərəfindən.

Nəzirməmməd Zöhrablı: - ƏliRza müəllimin təklifinə qoşulub, bəlkə, müraciət etsin ziyalılar. Bu daha məntiqli və nəticəli ola bilər.

Şərafəddin İlkin: - Ürək ağrısı, və təəssüf hissi ilə oxudum bu yazını... Nizaməddin müəllimi çoxdan tanısam da, dəyərli yazıçımız Əlibala Hacızadə haqqında yazdığı «Mənim Alikim öldü» məqaləsindən sonra ona hörmətim birə min artdı. «Kredo» qəzetində gedən həmin yazını baş redaktoru olduğum «Orta təhsil» jurnalında da çap etdim. Xəstə olduğunu, maddi vəziyyətinin ağır olduğunu indi oxudum. Və çox üzüldüm. Ümid edirəm ki, ömrü boyu xalqına xidmət etmiş ziyalımız köməksiz qalmaz.

Quba Dərbənd Gülüstanı: - Nizaməddin müəllimin timsalında Əli Rza Xələfli çox gərəkli və ağrılı bir problemi gündəmə gətirib. Dünən Nizaməddin müəllim bu məsələnin AYB rəhbərliyi tərəfindən də qaldırılaraq onun Prezident təqaüdünə təqdim edilməsi üçün təşəbbüsdə bulunduğunu dedi. Yazar və oxucuların da bu təşəbbüsü dəstəkləməsi arzuolunan və sevindiricidir.

Nüsrət Quliyev: - Allah yardımçınız olsun.

Maarif Pirəliyev: - Nizaməddin müəllim Milli Məclisin kreslo sakinlərinin bir çoxundan bu xalqa qat-qat artıq xidmət göstərib. Heç olmasa müəyyən məbləğdə Nizaməddin bəyə təqaüd verilsə, büdcəmiz kasıbdəmi qalar?

Qabil Səmədov: - Zər qədrini zərgər bilər. Ziyalılara mənəvi və maddi dəstəyi də ziyalı insanlar verməlidirlər. Təşəbbüsünüz təqdirə layiqdir və alqışlayıram.

Adil Həsənoğlu: - Əli Rza müəllim, beyin yarımkürələrimiz amputasiya olunub ee, ayaq-qol nədir ki? hamımızın amputasiya növbəsi çatacaq... mən öz günümü təxmin edirəm.

Gülarə Munis: - Əli Rza müəllim, yazını diqqətlə oxudum... Əgər N.Şəmsizadə kimi bir elm fədaisinə, dəyərli ziyalıya, ömrünü elmin, təhsilin inkişafına sərf edən bir alimə verilən dəyər budursa, onda deməli, insanlıq çökmək üzrədir. Heyiflər olsun.

Akif Hüseynov: - Allah köməyi olsun!.. qeyd olunanlar yaşadığımız reallıqdır. Bizlər bu günləri arzulamamışdıq... İstənilən halda təklifi dəstəkləmək lazımdır.

Tamella Quluzadə: - Ümidvarıq güclü, qüdrətli dövlətimizə.

Ramin Məmmədov: - Daim dövlətçiliyimizi ucaldan Böyük Alimə dövlət dəstəyi yüksək səviyyədə olmalıdır. İnanırıq ki, yaxın günlərdə ona Prezident təqaüdü verilməsi məsələsi də müsbət həllini tapacaq. Onun sağlamlığı da bərpa olunacaq. Gün gələcək ustad sənətkarın yeni-yeni əsərlərini də oxuyacağıq.

Əli Rza Xələfli: - Ramin sən Rusiyadasan. Çox sağ ol ki, yazını oxumusan.

Ramin Məmmədov: - Oxumuşam, əziz qardaşım. Çox təsir elədi mənə. Əvvəla Nizaməddin müəllimin belə xəstələnməsi, sonra onun belə çətin duruma düşməsi məni çox təsirləndirdi. Bəli, bu gün ona Prezident təqaüdünün verilməsi çox vacibdir.

Hidayət Səfərli: - Çox zamanında... ictimaiyyətə çatdırılması vacib olan haray səsini eşidirəm. Bu haraya laqeyd qalmaq olmaz. Bu böyük şəxsiyyətə dövlət tərəfindən kömək göstəriləcəyinə inanıram.

Mirzə Mirimli: - Əzizim Əli Rza! Sizin hayqırtınızı, yanğınızı diqqətlə oxuduğum «Vulkan yatağında közlər yanırdı» yazısından duydum. İnanıram ki, dövlətimiz bu böyük, əvəzsiz insana diqqət ayıracaq.

Abdulla Suvar: - Nizaməddin Şəmsizadə hər cür qayğıya, diqqətə layiq bir alimdir. Mən də Əli Rza müəllimin təklifini dəstəkləyirəm və inanıram ki, öz müsbət həllini tapacaq.

Cəbrayıl Şıxəliyev: - Allah şəfa versin. İllərlə deyə biləcəyinə kontur qoyanda belə olur cəmiyyətin bəlası. Güclü palemikaya malik alimdir.

Zərəngiz Mansurova: - Nizaməddin Şəmsizadə heç kimə bənzəməyən, unikal şəxsiyyət, dəyərli alimdir. Dövlət bilsə, onu mühafizə edər. Mən inanıram, Əli Rza və Asif qardaşım, tərəfinizdən bu məsələni açıqlamaq böyük lütfkarlıqdır. Ona sözlə kömək azdır. Maddi kömək və dəyərli dəstək lazımdır. Yəni onun Prezident təqaüdü almaq haqqı var. Bir kimsə bunu dana bilməz. O, ədəbiyyatımızın, ədəbi tənqidimizin bu günkü simasıdır. Bu danılmazdır. Mən bizim hökumətimizin humanistliyinə inanıram. Bir daha inanıram ki, ona dəstək verən olacaq... Kaş əlimdən nəsə gələydi...

Ayfər Nizaməddinqızı: - Çox pis kövrəldim... Nə deyəcəyimi bilmirəm. Var olun, göstərdiyiniz münasibətin əvəzini Tanrı verər. Çox ümid edirəm ki, səsiniz ünvana çatacaq.

Əvəz Süleyman: - Yaradan köməyi olsun.

Elşən Məmmədli: - Əli Rza müəllim, bu dəyərli, haray dolu yazınızı diqqətlə oxudum! ...Sizin dost, kolleqa, vətəndaş kimi mövqeyinizə görə təşəkkür edirəm!.. İlk öncə bunu deyim ki, Nizaməddin müəllimin xəstəliyinə görə çox üzüldüm!.. Allah kömək olsun!.. Daha sonra bütün səviyyələrdə ona qarşı olan bu biganəliyə təəssüfləndim... Nizaməddin müəllim kimi alimə dövlət təqaüdü ayrılması təklifinizi də dəstəkləyirəm!

Mədaxil Cavadlı: - Çox gözəl təşəbbüsdür, çox sağ olun. Biz hər vaxt hazır.

Sehran Şükür: - Yazınızı oxudum. Əli Rza müəllim, o kişiyə də acıdım. Amma bu yaxın vaxtlarda onun bir araşdırması mənə heç də xoş gəlmədi. Araşdırıb tapıb ki, Şah İsmayıl Xətainin ana tərəfi erməni əsillidir (??? - Ə.X.). Zamanın bu çağında bunu aşkarlamaq (??? - Ə.X.). bir tərəfi onun dediyi kimi erməni əsilli olan gənc yaşında Böyük Azərbaycan dövlətini qurardımı???

Əli Rza Xələfli: - Axşamınız xeyir Sehran Şükür. Yazını oxuduğunuz üçün təşəkkürlər. Xrist... əsilli... ana tərəfdən deyə bilər... Sizin qeyd etdiyinizə isə inanmadım. Əgər belə deyilibsə, səhvdir... ancaq bu gün biz başqa müstəvidə görüşürük. O polemikanı açmağın günü deyil... xahiş edirəm, məni düz başa düşməyə çalışın.

Quba Dərbənd Gülüstanı: - O müsahibədə Nizaməddin müəllim Şah İsmayılın nənəsinin xristian, yunan əsilli olduğunu demişdi ki, bu da tarixdə çoxdan bilinən məlumatdır. Sayt cümləni təhrif edib manşetə çıxartdığından o zaman zahiri anlaşılmazlıq yaranmışdı.

Əli Rza Xələfli: - Düzdür, Quba Dərbənd Gülüstanı!.. Axı dedim bu başqa müstəvidir... cavab yazmışdım. Xahiş edirəm müstəvini dəyişməyin.

Nəriman Mahmud: - Ədəbi-mənəvi düşüncəmizin formalaşmasında əvəzsiz xidmətləri olan Nizaməddin Şəmsizadə kimi ziyalının, mən deyərdim, elm fədaisinin yandırdığı şamın öləziyib sönməsinə seyirçi qalmaq olmaz. Bundan ötrü ilk növbədə təbii ki, şamın - işığın



özünü - Nizaməddin müəllimi qorumaq lazımdır. Bu baxımdan Əli Rza Xələflinin bu təşəbbüsü dəstəklənməli və ictimailəşməlidir. İnanıram ki, ictimailəşən təşəbbüs dövlət səviyyəsində də dəstəklənəcək. Problemi ürək yanğısı ilə qələmə alan ustad Əli Rza müəllimə isə təşəkkür edirəm.

Əli Rza Xələfli: - Hörmətli Nəriman Mahmud, çox diqqətli yanaşmaya görə sağ olun.

Vaqif Quliyev: - Hörmətli Əli Rza müəllim, mən mətni oxudum və böyük bir ürək ağrısı ilə cavabsız qoya bilmədim. Bizim bir xoşa gəlməyən cəhətimiz də bundan ibarətdir ki, bizim bir çox dövlət qurumlarımız sənətkara və ziyalıya dünyasını dəyişəndən sonra qiymət verir. Bu kimə və nəyə lazımdır? Ona görə də get-gedə hər şeyimiz gələcəyə doğru unudula-unudula gedir. Çox təəssüf.

Rəsul Əliyev: - Allah sizdən razı olsun, Əli Rza müəllim. Gözəl fikirlər sahibisiniz. Allah ürəyinizə görə versin. Yəqin ki, səsinizi eşidərlər.

Elşad Nadirov: - Mən yazını oxudum, demək olar ki, sizin bu fikriniz, bu dediklərimiz xalqın demək istədiyi, amma cəsarət edib deyə bilmədikləridir. Siz bir yazıçı, bir şair və bir insan kimi öz cəsarətinizlə seçilən insanlardansınız. Mən çox xoşbəxtəm ki, sizin kimi xalqını sevən, xalqın qeydinə qalan və xalqın sözünü deyən bir insanla - Əli Rza Xələfliylə yaxın münasibətdəyəm.

Hüseyn Məmmədov: - Əli Rza müəllim, «Kredo» qəzetinizin dünənki sayında (18.10.2018) yazdığınız «Vulkan yatağında közlər yanırdı...» başlıqlı məqalənizi oxudum. Sizin bu yazınızı ürək ağrısı ilə qarşıladım. Ədəbiyyatşünas, alim Nizaməddin Şəmsizadə ilə ilk tanışlığımız rəhmətlik Zəlimxan Yaqubun 60 illik yubiley gecəsində olmuşdu. Olduqca gözəl, səmimi insan olduğunu gördüm. Əli Rza Xələflinin yazdığı təklifi bütün ziyalı ordusu dəstəkləməlidir. Sağ olsun Əli Rza Xələfli bu məsələni ictimailəşdirib.

Əli Rza Xələfli: - Təşəkkür edirəm Hüseyn Məmmədov... həmrəylik... həqiqətin gücüdür.

Şəfəq Nasir: - Həqiqi ziyalının üzünə belə qəm yeli toxunanda ürəyim ağrıyır. Onda da ola Nizaməddin Şəmsizadə kimi böyük ziyalı.

Əli Rza Xələfli: - Böyük ziyalı taleyinə biganə qalmadınız, sağ olun, Şəfəq Nasir.

Nurəddin Mirzəxanlı: - Heyif, çox-çox heyif.

Əli Rza Xələfli: - Bəlkə, təklifini bildirəsən, Nurəddin Mirzəxanlı.

Nurəddin Mirzəxanlı: - ...gələn həftə gələrəm, söhbət edərik.

Hafiz Rüstəm: - Əli Rza çox düzgün qeyd edir ki, «Nizaməddin Şəmsizadə xalqın sərvətidir, dövlətin əqli mülkiyyətidir. Xalqın kimliyinin özü olan alimi necə unutmaq, görməzliyə vurmaq olar? Axı Nizaməddin Şəmsizadə ədəbiyyatda və sənətdə dövlətin mənəvi əsaslarını yaradan əsas simalardandır - dövlətçidir, Azərbaycançı ideoloqdur». Əli Rzanın bu ürək yanğılı çağırışını qoy Allah və onun kölgəsi eşitsin! Əziz qələm dostumuz, böyük alimimiz Nizaməddin Şəmsizadəyə Allahdan şəfalar diləyirəm.

İlqar Hüseynov: - Allah şəfasını versin.

Sahilə Tutquçaylı: - Çox təsirləndim. Bu hər an yaşadığımız reallıqdır, Əli Rza Xələfli, bu bizi üzən, sonumuz olmadan da sonluğa sürüklənən bir xalqın acı taleyidir... İctimai müzakirədə, kütbeynlərin ictimai qınağına tuş olmaq daha da ağır deyilmi? Yoxdur... yoxdur bizim elitamız. Hər kəs susub, bu susqunluqla haraya gedirik biz?.. Gələcək nəsil bizi bağışlamayacaq... İndi tək torpağımız getməyib... onunla bərabər çox şeyimiz gedib. Təhsilimiz, səhiyyəmiz, varlığımız, vicdanımız, mənliyimiz...

Əli Rza Xələfli: - Düşünə bilsək, demək varıq. Varlığımız isə dövlətin gücü və ziyalıların düşüncəsi ilə təsdiqlənir.

Araz Əhmədoğlu GurSəs: - Rza Bu mətni oxumaqla (əziz ustadım Əli Rza Xələflinin «Vulkan yatağında közlər yanırdı» yazısını nəzərdə tuturam) ən azı biz hörmətli Nizaməddin Şəmsizadəni tanıya bilirik. Birinci arzumuz ona cansağlığı diləyimizdir. Bu gün bu acı həqiqətlərlə yaşaya bilmək insana çox çətin gəlir. Dünyanın ən gəlişmiş ölkələri o cümlədən, birinci Koreya, ikinci Yaponiya və başqalarında müəllimlərə xüsusi diqqət yetirilir. Bu diqqətin sayəsində ölkənin gələcəyi, gəlişməsi, diriliyi, birliyi və bir sözlə, hər nəyi qaranti edilir. Təhsil işi təməl quruluşların (infrastrukturların) ən başda vacib olanlarından və əlbəttə, bu istiqamətdə yatırım yatırtmaq günümüzün çörəyindən də vacibdir. Təhsil məsələsinə xor baxan ölkələr isə dünyanın ən təhlükəli ölkələrindən sayılır, Nigeriya, Çad, Somali, Əfqanıstan və başqa Afrika, Asiya ölkələri də təhsil məsələsinə xor baxdıqları üçün ən geridə qalmış ölkələrdən sayılır. Vətənimizin gələcəyini qaranti etmək istəyiriksə, təhsil məsələsinə ciddi baxmalıyıq və təhsili yürüdən, düşüncəni irəli aparıb gəlişməni qaranti edənlər də əlbəttə, yazıb-yaradan alimlərimiz, yazıçılarımız, şairlərimiz və fikir sahiblərimizdir. Onlara saygı göstərmək bəri başdan onların məişətinə diqqət yetirib toplumda onların statusunu yüksəltməklə olasıdır. Gəliri az olan bir müəllim, ziyalı, savadlı gələcək nəslə pis örnək olar, belə ki, uşaqlar dərs oxuyub savadlanmağa yox, bir gecədə milyonçu olmağa can atar. Və belə bir toplumda itinin doğum günündə 10 minlərlə dollar xərcləyib qonşusuna, dövlətinə, vətəninə laqeyd yanaşanların sayı getdikcə artar. Bunun sonu bəllidir. Bütün bunları deməkdə məqsədim budur ki, professor Nizaməddin Şəmsizadə kimi ustadları diqqətdən kənarda qoymaq olmaz. İnanıram ki, hümanist siyasət yeridən Azərbaycan dövləti ona hər cür qayğı göstərəcək.

*(Davamı var)*

**Təqdim etdi:**

***Əli Rza XƏLƏFLİ***